

Məhərrəm Zülfüqarlı
Tarix elmləri doktoru, professor

## Azərbaycan tarixin öyrənilməmiş səhifələri

# 20 Yanvarda xalqı müdafiə etmiş DTK əməkdaşları

*(Əvvəli ötən sayımızda)*

"20 yanvar faciəsinin səhəri günü o zamanki Dizerjinski adına (Hazırda Şəhriyar adına klub) klubda SSRİ DTK sədrinin birinci müavini general polkovnik Filip Denisoviç Bobkov və Azərbaycan SSR DTK sədri Vaqif Hüseynovun rəhbərliyi ilə geniş iclas keçirildi. İclasdan əvvəl kadrlar şöbəsindən bütün sahələrdən təcrid olunaraq fəaliyyətinə qadağa qoyulmuş azərbaycanlı milli kadrlara zəng edilərək iclas zalında birinci sırada oturmaları tələb olunmuşdu. İclası general polkovnik F. D. Bobkov açaraq baş vermiş cinayəti özləri törədikləri halda Azərbaycan xalqını, hansısa milli eksterimist qüvvələri ittiham etdi. O, bu zaman ön cərgədə əyləşmiş əməkdaşları göstərərək bizim aramızda da beleləri var deməklə cinayəti milli qüvvələrin üstünə atmağa cəhd etdi. Bu zaman əksəriyyətin gözləmədiyi halda İman Abdullayev yerindən duraraq "Bobkov sən cinayətkarsan, sən Azərbaycan xalqının qanını içmisən" deməsi tribunada olan rəhbərliyi təşvişə saldı. Bu zaman zalda olan "Alfa" qrupunun üzvləri hər an atəş açaraq ön sırada oturanları qətlə yetirə bilərdilər. Lakin zalda oturanların demək olar ki, 70 faizin ayağa duraraq etiraza qoşulması onlar bu addımdan çəkindirdi və onlar tələsik Bobkovun zaldan uzaqlaşdırdılar."

Y. Nəbiyevin "Bir zamanlar DTK" kitabında isə 20 yanvar faciəsi zamanı digər qeyrətli təhlükəsizlik zabitləri, əsasən Eldar Nicatov və Şahverdi Arifovun cəsarətli mövqeləri haqqında aşağıdakı məlumat veririb: "General tribunaya keçib ordunun Bakıya yeridilməsinin səbəblərini açıqlamağa başladı. Azərbaycanda "Xalq cəbhəsi" hərəkatının liderlərinin hakimiyyəti ələ keçirmək cəhdlərindən tutmuş ermənilərin kütləvi şəkildə öldürülməsinədək cəfəngiyyat dolu nitq söyləyən Bobkov onsuz da əsəbləri tarıma çəkilmiş əməliyyatçıları bir az da təhrikə çəkdi. Əsassız faktların gətirilməsinə dözməyən kəşfiyyat şöbəsinin əməkdaşı Eldar Nicatov onun çıxışını yarımçıq kəsdi:"Yoldaş general biz çekistlər sizdən həqiqəti gözləyirdik. Siz isə erməni millətçiləri və seperatçılarının sözlərini tamamilə təkrar edirsiniz."

Eldarın bu sözlərindən sonra sanki qurbağa gölünə daş atdılar. Zalda hamıya məlum idi ki, SSRİ DTK-sında xidmət etdiyi dövr ərzində Bobkov kimi zəhmli, mühüm və yüksək rütbəli zabitin ünvanına heç kim bu cür tənqidi sözlər söyləməmişdi. DTK əməkdaşları arasında bir neçə saniyə sürən sükutdan sonra Filip Denisoviç nəhayət özünə gəldi: "Mən başa düşmədim siz nəyi nəzərdə tutursuz yoldaş zabit?"

Eldar: "Onu nəzərdə tutram ki, erməni KQB-sinin müttəfiq Azərbaycan Respublikası ərazisindəki terorçu fəakiyyəti haqqında məlumatdırıldırılmağınıza baxmayaraq çalışırsız günahı "Xalq cəbhəsi"nin hansısa bilərəkdən uydurulmuş silahlılarının üstünə atmağa çalışırsınız!"

Bu sözlərdən sonra artıq Eldara heç kim qulaq asmırdı. Hamının diqqəti akt zalının giriş qapılarının ağzında mövqe tutan "Alfa" xüsusi təyinatlılarının davranışına yönəlmişdi. Vəziyyət o qədər gərginləşdi ki, əməliyyatçılar onlardan yeganə hərəkət gözləyirdilər: Nicatovun sinəsinə, yaxud gicgahına nə vaxt atəş açılacaqdır? Durumu Bobkov da anladı və azərbaycanlı əməliyyatçıların da silahlı olduqlarını nəzərə alıb, çıxış yolunu oda su səpməkdə tapdı: "Zabit, mən sizi başa düşürəm. Bakıya qoşun yeridilməsindən çoxlu sakin zərər şəkdi."

Eldar: " Zərər şəkdi? Siz nə deyirsiz yoldaş general? Nüxtəlif çaplı silahlarla yüzlərlə insan yerindəcə güllələnib."

Bobkov: " Axı öldürülənlər əsasən qırmızı orduya amansız silahlı müqavimət göstərən adamlar idilər. Bu silahlılar həmçinin sizin paytaxtın erməni əhalisinə qarşı çoxsaylı cinayətlərdə təqsirkardırlar."

Eldarla Bobkovun dialoqu DTK-nın vətənpərvər əməkdaşlarını daha da alovlandırdı. Söhbətə əks-kəşfiyyat şöbəsinin əməkdaşı Şahverdi Arifov da müdaxilə etdi: "Dayanın yoldaş general hansı "silahlılar"?

Bobkov: "Xalq cəbhəsi" deyilən hərəkatın silahlıları."

Şahverdi Arifov: " Onlar necə silahlı ola bilərdilər ki, Mərkəzin göstəişlərinə əsasən bütün Azərbaycan xalqından hətta ov silahları belə yığışdırılmışdı? Mən hələ soyuq silahları və mərbəx bıçaqlarını demirəm. Erməni əhalisi isə bu vaxt təpədən dirnağa qədər silahlandırılmışdı."

Bobkov: " Düzün desəm mən silahlı hücumlar haqqında hələ məlumatlı deyiləm..."

Şahverdi Arifov: "Əgər biz Azərbaycan çekistləri sizi, SSRİ DTK sədrinin müavini, hər dəqiqə erməni terrorçuları və müxtəlif antisovet elementlərin qanunsuz, təxribatçı fəaliyyətləri haqqında yazılı şəkildə məlumatladırırdıqsa, sizin necə məlumatınız olmaya bilərdi"?

Bobkov: "Mən sizi əmin edirəm ki, mənə belə məlumat daxil olmayıb".

Bobkovun bu cavabından sonra ara bir qədər sakitləşdi. Zalda əyləşən əməliyyatçılar onun son sözlərindən dəqiq nəticə çıxara bilmədilər: Filip Denisoviç Azərbaycan SSR rəhbərliyini susqunluqda günahlandırdı, yoxsa öz canını qurtarmağa cəhd göstərdi? Özünü qorumaqdan söhbət gedə bilməzdi. Çünki onun arxasında sovet dövlətinin başdan-ayağa silahlanmış ordusu, binanın daxilində isə "Alfa"nın peşəkar zabitləri dururdu. Deməli, Azərbaycanın rəhbərliyi erməni separatçı və terroçuları barədə Sov.İKP MK-ya dolğun məlumat göndərməmişdi. SSRİ KQB-silə əlbir olaraq vəzifədə qalmaq naminə müxalifətin başını əzmək istəmiş və nəhayət, kor-koranə, əmrə müntəzir robot kimi soydaşlarının əlehinə Mərkəzə qüsursuz xidmət göstərmişdi. İclasdan heç nə əldə edəməyəcəyini anlayan Bobkov gündəmdəki məsələlərin müzakirəsinə son vermək istədi. Lakin sözlərini bitirməyən Eldar Nicatov monoloquna davam etdi: "Yoldaş Bobkov, sonda mən demək istəyirəm ki, xalqıma qarşı sovet ordusunun fəaliyyətini heç cür qəbul etmirəm. Və mənə ayıb olar ki, kommunistin partiya biletini və çekis vəsiqəsini daşıyam. Mən xidmətdən istefa verirəm."

Bu sözlərdən sonra Bobkov vəsiqələri kütləvi şəkildə onun önünə atmasınlar, -deyə Nicatova müraciət etdi: " Yoldaş zabit mən sizin iradlarınızı diqqətlə dinlədim. Buna görə də sizinlə təklikdə danışmaq istəyirəm."

Eldar: "Yoldaş Bobkov mən öz düşündüklərimi tam şəkildə bildirdim. Əlavə etməyə heç nə qalmadı."

Tarixi qəhrəmanlar yaradır, tarixçilər isə onu yazırlar. Yaradılmış tarix yazılanda tarix olur, yazılmayanda unudulub gedir. Azərbaycan tarixinin qəhrəmanlıq səhifələri, o cümlədən təhlükəsilik xidməti əməkdaşlarının da qəhrəmanlıqları obyektiv şəkildə yenidən geniş araşdırılmalı və yazılmalıdır. Bu məsələ əvvəlki illərdə olduğu kimi, müasir dövrdə də aktual olaraq qalır.